Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin ___________ tarixli ______№-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun**
**İnformasiya texnologiyaları və innovativ həllər departamentinin**

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) İnformasiya texnologiyaları və innovativ həllər departamentinin (bundan sonra – Departament) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ni, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin əmrlərini və sərəncamlarını, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

**2.1.** Departament aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** İnstitutun elektron informasiya sistemlərinin fəaliyyətinin dayanıqlığını təmin olunmasını, texniki dəstək xidmətlərini və yeni texnologiyaların tətbiqini həyata keçirir;

**2.1.2.** proqram təminatlarının, informasiya sistemlərinin, informasiya ehtiyatlarının (məlumat bazalarının) və reyestrlərin yaradılması və təkmilləşdirilməsi üzrə təkliflər hazırlayır və bu istiqamətdə tədbirlərin həyata keçirilməsində iştirak edir;

**2.1.3.** İnstitutun elektron informasiya sistemlərinin fəaliyyətinin təmin olunması və təkmilləşdirilməsi, elektronlaşma prosesinin sürətləndirilməsi üzrə tədbirlər həyata keçirir;

**2.1.4.** İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqinin təşkil edilməsində iştirak edir;

**2.1.5.** İnstitutun fəaliyyət istiqamətləri üzrə informasiya texnologiyaları sahəsində strateji planlaşdırma işini həyata keçirir;

**2.1.6.** İnstitutun informasiya texnologiyaları sahəsində fəaliyyətini onun tabeliyində olan və olmayan digər qurumlar ilə əlaqələndirir, həmin orqanların informasiya resursları və sistemləri ilə məlumat mübadiləsini həyata keçirir;

**2.1.7.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Departamentin vəzifələri

**3.1.** Departamentin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** İnstitutun vahid kompüter şəbəkəsinin, informasiya sistemlərinin yaradılmasını, tənzimlənməsini, onların fasiləsiz və təhlükəsiz işini təmin etmək;

**3.1.2.** İnstitutun internet resurslarının fəaliyyətini təmin edən proqramların tənzimlənməsi və fasiləsiz işinin təmin olunması üçün zəruri tədbirlər görmək;

**3.1.3.** İnstitutun elektron informasiya sistemlərinin fəaliyyətinin təhlükəsizliyini və mühafizəsini təmin etmək;

**3.1.4.** kompüter və şəbəkə avadanlıqlarının idarə edilməsini təmin etmək;

**3.1.5.** İnstitutun elektron poçtunun fasiləsiz işini təşkil etmək;

**3.1.6.** İnstitutda elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyanın aparılmasında və nəticəsi barədə arayışların, hesabatların hazırlanmasında iştirak etmək;

**3.1.7.** İnstitutun informasiya sistemlərinin, elektron xidmətlərin və elektron xidmətlər reyestrinin yaradılmasında iştirak etmək, elektron xidmətlərin göstərilməsi üzrə dövlət orqanları ilə əməkdaşlıq etmək;

**3.1.8.** İnstitutun fəaliyyət istiqamətləri üzrə proqram təminatlarının yaradılmasını təşkil etmək;

**3.1.9.** Agentlik və İnstitut tərəfindən həyata keçirilən elektron xidmətlərin hazırlanması, formalaşdırılması, tətbiqi və təkmilləşdirilməsində iştirak etmək;

**3.1.10.** aiddiyatı üzrə şəxslərin qəbulunu həyata keçirmək, vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətləri araşdırmaq və aidiyyəti üzrə cavablandırmaq;

**3.1.11.** İnstitut sədrinin tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq;

**3.1.12.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 4. Departamentin hüquqları

**4.1.** Departamentin öz vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqları vardır:

**4.1.1.** elektron informasiya sistemlərinin və ehtiyatlarının yaradılması və təkmilləşdirilməsi ilə bağlı İnstitutun və ya Agentliyin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi kimi çıxış etdiyi layihələrin hazırlanmasında və icrasında iştirak etmək, görülən işlər barədə arayışlar, hesabatlar almaq, sorğular verilməsini təklif etmək;

**4.1.2.** dövlət orqanlarının malik olduqları informasiya sistemlərinə inteqrasiyaları təmin etmək, institut tərəfindən göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq proqram təminatını hazırlamaq məqsədi ilə xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək;

**4.1.3.** İnstitutda elektron xidmətlərin təşkilində istifadə olunacaq informasiya sistemlərinin yaradılması zamanı onların təsdiq olunmuş layihələrə, texniki normalara, standartlara və tələblərə uyğun həyata keçirilməsinə nəzarət edilməsi və istismara qəbul prosesində iştirak etmək;

**4.1.4.** digər dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin həyata keçirilməsi məqsədilə yaradılmış infrastruktura qoşulmaları üçün dövlət orqanlarına veriləcək təkliflərin hazırlanmasına və həyata keçirilməsinə nəzarət edilməsində iştirak etmək;

**4.1.5.** fəaliyyət istiqamətlərinə aid olan məsələlərin tədqiqi və həlli üçün elmi tədqiqat və təcrübi-mühəndis işlərinin görülməsi, texniki ekspertizaların aparılması və məsləhət xidmətlərinin göstərilməsi üçün qanunvericiliklə müəyyən olunmuş qaydada elmi-tədqiqat və təhsil müəssisələrini, şirkətləri, müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək, onlarla müqavilələrin bağlanmasını təmin etmək, işçi qruplar, komissiyalar, elmi-texniki şura yaradılması üçün təkliflər vermək;

**4.1.6.** fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək və uyğun təcrübənin tətbiqi ilə bağlı təkliflər vermək;

**4.1.7.** müvafiq sahə üzrə analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

**4.1.8.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

**5.1.** Departamentin fəaliyyətinə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra – Departament müdiri) rəhbərlik edir. Departament müdiri departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**5.2.** Departament müdiri:

**5.2.1.** Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.2.2.** tabeliyində olan şöbələr və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.2.3.** Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.2.4.** Departamentin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün İnstitutun rəhbərliyinə təqdimatlar verir;

**5.2.5.** Departamentin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər struktur bölmələrindən məlumat və sənədləri alır;

**5.2.6.** Departementi təmsil edir.

**5.3.** Departament müdirinin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Departament müdirinin müavini departament müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada departament müdirinin müavini və ya İdarə Heyətinin sədri tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

**5.4.** Departament 3 şöbədən ibarətdir:

**5.4.1.** İnformasiya texnologiyaları və texniki dəstək şöbəsi;

**5.4.2.** Proqram təminatlarının hazırlanması və innovativ həllər şöbəsi;

**5.4.3.** İdentifikasiya, monitorinq və data analitikası şöbəsi.

**5.5.** Şöbələrə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdirləri rəhbərlik edir.

**5.6.** Departamentin digər işçiləri İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.7.** Departamentin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.